# “QURDAĞZI DUASI” POEMASINDA HƏSRƏT YANĞISI



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən saylarımızda)*

## *II HİSSƏ*

Dünyada baş verən siyasi hadisələrin əsas səbəbi kimi xəritəni dəyişdirmək planları göstərilir. Doğrudur, insan haqları eyni dövlətin ərazisində bir xalqın mənəvi problemlərlə üz-üzə qalması, dilə qarşı işğalçılıq siyasəti, hər xalqın özünə xas olan dəyərlərinin iflasa uğradılması kimi məsələlər də münaqişələrin yaranmasına səbəb ola bilir. Amma əsasən xalqların öz müqəddaratını təyin etmək hüququnu əldə etmək, dilini qorumaq, dəyərlərini xilas etmək kimi amillər haqlı mübarizə motivi olaraq gündəmdə qalır.

Ayrı-ayrı sənətkarların yaradıcılığı ədəbiyyata güvənclə insanların düşüncəsinə təsir etmək istəyən ziyalıların mübarizəsində əsas vasitə sözdür. Bu baxımdan Xalq şairi Söhrab Tahirin də yaradıcılığında cənub mövzusu xüsusi əhəmiyyət kəsb edir. Ayrı-ayrı poemalarında, şeirlərində, nəsr əsərlərində, roman və hekayələrində otuz milyondan çox azəri türkünün tale yolu ardıcıl olaraq yazıya gətirilib. Düşünürəm ki, Söhrab Tahirin həyatına, yaradıcılığına, ümumiyyətlə mübarizələrinə dövrünün söz-sənət adamları biganə qalmayıblar. Onun həyat yolu ədəbiyyatımızın zənginləşməsi üçün bir növ stimul olub. Söhrab Tahir həm şəxsiyyəti, həm də yaradıcılığı ilə ədəbi qüvvələrin diqqətini daim özünə cəzb edib. Əli Rza Xələflinin “Söhrab Tahirə məktub” poema qəsidəsi əsasında qələmə aldığı “Qurdağzı duası” təxmis poeması Cənubi Azərbaycan xalqının siyasi mübarizəsinin indiki mərhələsində diqqəti çəkən bir əsərdir. Mən əsəri ayrıca kitab şəklində nəşr etmək üçün hazırlığa başlayanda mətnin poetikası diqqətimi cəlb etdi. Maraqla oxudum. Sözün həqiqi mənasında şairin ilhamı, əsərin poetik axarı oxucunu sanki tilsimə salır. Axıra qədər maraqla oxudum və əsər haqqında düşüncələrimi oxucularla da bölüşmək qərarına gəldim.

Müəllif əsərin II hissəsini də öz ustadına müraciətlə başlayır. Maraqlıdır ki, o, indiki mərhələdə də həyatının qatarını aparan əsas qüvvəni özünün söz yolu, bir sözlə sənəti kimi görür. Şübhəsiz onun ustadının məsləhətlərini yada salmasını, bu əhvalla da ustadın vaxtilə ona dediklərinə güvənərək yaradıcılıq yolunu davam etdirməyini bildirir.

Söhrab Tahir həyatının xeyli hissəsini “Kredo” qəzeti, bu qəzetin yaradıcı qüvvələri və demək, həm də, qəzetin baş redaktoru Əli Rza Xələfli ilə ünsiyyətdə keçirib. Bilavasitə Xələflinin təşəbbüsü ilə ustadın bir çox əsərləri ilk dəfə “Kredo” qəzetində itşıq üzü görüb. Bu da Xələfliyə imkan verib ki, ustadın geniş oxucu kütləsinə malik olmayan əsərləri ilə də tanış olsun. Hətta, ustadın “Savalandan gələn yol” adlı romanının adını da bildiyimə görə Xələfli təklif edib və ustad da bununla məmnuniyyətlə razılaşıb. Düşünürəm ki, ustadın ruhunu yaradıcılıq ilham qaynağı hesab edən Əli Rza Xələflinin “Qurdağzı” poeması oxucular üçün çox dəyərli zövq mənbəyi olacaq. Beləliklə Əli Rza Xələflinin “Qurdağzı” poemasından təəssüratlarımın davamı:

Ustad, sözüm çəkir hələ, həyatımın qatarını,
Deyirdin ki, vicdan bilər kimliyinin əyarını,
Haqqa güvən, deyirdin ki, şux saxlayar vüqarını;
Bilirəm ki, qorumasam ləyaqətin paltarını,
Bir ömürdə təmizlənməz, faydası yox, yumağın da.

İnamların, inadların gücü nədir, dözüm bilər,
Alovların içindəyəm, yansam belə, közüm bilər,
Qana qanla cavab verən haqq-hesabı sözüm bilər;
Azadlığın düşmənləri nə çəkəcək, yozum bilər,
Söz də mənim səngərimdir misralarım darağında.

Təbrizimə salam olsun, nəfəs verdim küləyimə,
Əmanətim sözüm olar, durna payı lələyimə,
Doğru-düzü üzə çıxsın, belə çəkdim ələyimə;
Yuxu-yuxu yol getmişəm istəyimə, diləyimə,
Şirin-şirin duyğularla xəyalımın qucağında.

Xələflinin poetik gücü əsərin bütün bəndlərində, bütün misralarında hiss olunur. Hətta, yüksək ilhamla qələmə alınmış bəndlərin içərisində poetik aforizmlərin yer alması da diqqəti cəlb edir. Şübhəsiz şaririn özünə inamla sözə köklənməsi onun uğurunu təmin edir. Əsər boyu biz sanki Söhrab Tahirin özünü izləyir.

Müəllif sanki Söhrab Tahirin ruhu ilə Təbrizə salam göndərir. Bu da sözün, sənətin daha çox cazibə yaratmsasına imkan verir. Müəllifin Söhrab Tahir ideallarına güvənərək xalqa doğrudüzgünü necə varsa elə çatdırmaq istəyə ilə qələmə sarılıb. Baxmayaraq ki, bir çox hallarda aparılan mübarizələrin sonu yetmir. Xalq qan dənizində boğulur. Xalqın iradəsini əzmini qırmaq üçün qandonduran üsul və vasitələrdən istifadə etməkdən çəkinmirlər. İnsanlığa bu cür qəddar münasibətin mahiyyətinin biz son hadisələrdə də gördük. Dünyanın gözü qarşısında minlərlə insanlar öldürüldü, zindanlara atldı, güllələndi, asılmaqla edamlara məhkum edildi.

Müəllif insan axtarışındadır, o, istəyir ki, hər kəs ayrıldığı, arxa çevirdiyi insanlığa qayıda bilsin. Elə insanlığı da bu yola çağırır:

İnsan ola, ayrıldığı insanlığa dönə insan,
Qoy bilsin ki, tora düşər, quş da uçsa, dənə insan,
İnam olsa, yolun azmaz, düşsə duman, çənə insan;
Bəs nədəndir görə-görə, qana-qana yenə insan,
Oyuncaqdır lənətullah kor şeytanın barmağında.

Ey ustadım, sevgim sənsən, mən eşqimin torundayam,
Səndən gələn hər sədaya, dilək üstə sorundayam;
Atəşində odundayam, küləklənən qorundayam.
Ay Günəşin işığında, mən də sənin nurundayam.
Ovsunu var hər sözünün qapısında, qapağında.

Sənətkarın sözünün odu-atəşi hər misrada duyulur. Vətən yanğısı insanı qorumaq istəyi, o qədər güclüdür ki, sanki sözlər ağızdan çıxdıqca ifadə edəni də, dinləyicini də pörşələyir.

Müəllif bir daha ustadı ilə özü arasında müqayisə aparır. Ay ilə Günəş arasındakı münasibət elmi qənaətə əsaslanır. Axı Ay işığı Günəşdən alır. Müəllif də sənətinin gücünü ustadından alır. Maraqlıdır, deyilmi? Necə ki, C.Rumi ustadı Şəms Təbrizidən ilham alırdı, necə ki, Xaqani özü Əbül üla Gəncəvidən ilham alırdı, necə ki, Nizami Xaqanidən ilham alırdı, eləcə də “Qurdağzı duası”nın müəllifi ustadından aldığı ilhamı özünün işığı hesab edir. Zənnimizcə, mənəvi varislik üçün ustadından alınan işığın yaradıcılığı üçün təkan olduğunu bilməkdən artıq daha nə ola bilər?

S.Tahir ideal idi, bütöv Azərbaycan idealı. O, deyirdi ki, bölünməkdən elə qorxmuşam, çöpü də ikiyə bölmərəm daha. Yaxud S.Tahir öz qollarının iynə-sap olmasını diləyir. Bununla - bu iynə-sapla Astaraları, üulfaları, Xudafərinləri bir-birinə tikməyi diləyirdi.

Həyat nə qədər ağır tələblər irəli sürsə də, insan qəlbinin dərinliklərində olan hisslər, duyğular tükənmir, sınmır, məğlub olmur, geriyə çəkilmir. eləcə də biz bu mübarizələrin mahiyyətini “Qurdağzı duası” poemasını bütövlükdə ağrı-acısı ilə birlikdə görürük:

Xalq inləyir mollaların toppuzunda, toxmağında,
İran hələ gərnəşməkdə... ildırımlar çaxmağında.
Ölkə bütün ac-yalavac, dil yandırıb yaxmağında.
Söhrab Tahir, nələr yatır dilimizin qadağında
Təbriz dadı, tamı verən acılığın damağında.

Əkrəm Bije çox gözəldi, yol yormadı bir bəxtiyar,
Rübabənin naləsində çiləndi çox arzular,
Vətən dərdli övladların səpələndi diyar-diyar.
Çiçək açan bu həsrətin Təbriz adlı qibləsi var,
Tutiyadır gələn tozu Cavad Heyət ayağında.

Minalanmış fikirlərin can atıram səddinə mən,
Yeriyirəm qəzəblərin qan soğulmuş həddinə mən,
Qurban gedim Azərbaycan boyuna mən, qəddinə mən.
Sazlı-sözlü Şəhriyarın nəzir dedim cəddinə mən,
Qismət ola, qurban kəsəm, Göy məscidin qabağında.

Dövrün, siyasi mühitin mənəvi sıxıntıların mənzərəsini göstərmək üçün şairin istifadə etdiyi obrazlardan artıq nəyə güvənmək olar? Mollaların yaratdığı siyasi rejim iflas mənəvi durum bütöv bir ölkənin faciəsini göstərir. Nə qədər sərrast, nə qədər dəqiq işlədim: “İran hələ gərnəşmədə”. Bu üç sözdən ibarət olan mahiyyəti tam aydın anlamaq üçün o qədər də dərin düşüncəyə ehtiyac yoxdur. Söz, sənət əslində xalq üçün nəyin necə olduğunu qədərincə anlatmaq gücündədir. Əslində, sözün, sənətin real tələbi həqiqəti ifadə etməkdir. Həqiqət isə elə tərzdə deyilməli və yazılmalıdır ki, cəmiyyət bu həqiqəti qavraya bilsin, anlaya bilsin. Doğmalığın, yadlığın mahiyyəti həqiqəti düzgün ifadə etməkdədir. Müəllifin bədii təsvirləri oxucunu özünə ahənrüba kimi çəkir:

Bulud-bulud toqquşmağım, şimşək-şimşək çaxmağım var,
Düşüncəmdən od alıram... varlığımı yaxmağım var,
Fikir-fikir dolanmağım, çağlar-çağlar axmağım var.
Dəniz kimi dalğalanan saçlarına baxmağım var.
Ayna sular gümüşlənir, xəyalımın qaymağında.

Göz dağında... talan oldu, əldən gedən varım, barım.
Dilsiz oldu zaman-zaman boynu bükük ixtiyarım,
Məqsədimdən, məramımdan yan keçmədi bir qərarım.
İstədim ki, məlhəm olsun, dərman olsun misralarım,
Sağalmayan yaraların qopar-qopmaz qaysağında.

Şirin-şirin xülyalarda yuxu gördük dadlı-dadlı,
Çox mənəmlər at oynatdı gəlib keçdi adlı-adlı.
Bir qurdağzı duasını qəfil gələn səs oyatdı.
Xəyalımda ilham adlı köhlən süzdü yel qanadlı,
Sal qayada ləpir qoyar, çınqıl çatlar dırnağında.

Müəllif çılpaq həqiqətləri gücü çatdığı qədər elə öz çılpaqlığında çatdırmağa çalışır. Nəyə görə? Ona görə ki, insanlara həqiqəti obrazlara bükməklə müəyyən məcazlardan və digər ifadə vasitələrindən - bənzətmələrdən yararlanmaqla sözü dumana bükmək müəyyən düşüncə təkanlarına sahib ola bilmir. Oxucuda mətləbi gec anlamaq şəraiti yaradır. Bu da əsl həqiqətlərin gücünü zəiflədir. Mənə elə gəlir ki, müəllif bu poemada qədərincə radikal mövqedən çıxış edir. Doğrudur, inqilabi prosesləri ədəbiyyata gətirməyi o qədər də tərəfdarı olmasam da, etiraf etməliyəm ki, ədəbiyyat özü sivil, maarifyana dəyişikliyə kömək etməlidir, nəinki inqilabi proseslərə. Ancaq ictimai zülm həddini aşırsa, sözün həqiqi mənasında insanların kimliyi ayaq altına atılırsa, onda necə kənar müşahidəçi, yumşaq təqlidçi roluna girmək olar.

Müəllif həyatı sadəcə seyirçi gözü ilə, şirin-şirin xəyallara dalmağın yolu ilə getmir. Onun ifadə tərzindən, poetik üslübündə xüsusi bir çağırış var. Doğrudur, bu çağırışların heç birisində insanın insana qəsd etməsi, öz istəyinə getmək üçün qan tökmək istəyini seçməsi təsdiq olunmur.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

# "QURDAĞZI DUASI" POEMASINDA HƏSRƏT YANĞISI

Amma həqiqətə, doğruya çatmaq istəyi qarşısıalınsazdır. Əslində, elə müəllifin də, onun istinad etdiyi ustadının da idealı Cənubi Azərbaycanı azad görmək istəyidir. Bu yolda bütün ağrı və əzablara dözməyi təlqin etməkdir. Heç şübhəsiz, müəllif də ustadı da ömürlərinin dəyərini böyük Azərbaycan idealına sədaqətlə xidmət etməkdə görürlər. Bizə elə gəlir ki, müəllifin ayrı-ayrı ədəbi və tarixi obrazlara müraciət etməsi təsadüfi deyil. Əkrəm Bije, Pənahi Makulu... digərlərinin adları əsərə təsadüfi gəlmir. Bu adların hər birinin arxasında müəyyən mübarizə motivləri dayanır. Rübabə Muradova, Mahrux Muradova, Tahirə Muradova kimi sənətçilərin hər biri vətən həsrətli duyğulanmaları, nəğmələri, şərqiləri ilə Şəhriyarın "Heydər babaya salam"ına cavab veriblər.

Biz sözlə, bir millətin taleyinə yazılan faciələrin mahiyyəti əslində, əsər boyu öz gücünü göstərir. Əsərin energisi, dəyəri bədii təsvir imkanları məxsusi olaraq millət və faciə motivlərinin üzərində qurulub. Elə bilirəm ki, bu yerdə yenə müəllifi dinləməliyik:

Bu millətin bəxti dönər, yolu itər sən uyusan,
Varlığını ucalıqda Savalanın öz boyu san,
Sən Doğudan Batıyacan hökm eləyən türk soyusan
Şah vüqarın əyilməsin, Qoca Qafqaz qürurusan,
Söhrab Tahir, dinlə məni, Tanrı dursun dayağında!..

Bütün hallarda müəllifin qədim türk tarixinin olaylarına, bir az da dəqiq desək, xəritəsinə müraciət etməsi əsərin əhatə etdiyi coğrafi məkanın əzəmətini göstərir. Söhbət Qoca Qafqazdan getdiyi halda müəllif ustalıqla Salavalın yada salır. Doğudan Batıdövrün ədəbi mühitinə hansı səviyyədə təsir göstərmək imkanlarına qədərincə poetik təsvirində reallaşdıra bilir.

Düşünürəm ki, bu cür yanaşma xalqı ayıq saxlamaq üçün, xalqı öz keçmişinə, tarixi qaynaqlarına bağlamaq üçün ən düzgün yoldur. B.Qaraçorlu Səhənd Azərbaycanın dünyada təmsil olunan hər bir şəxsi tərəfindən tanınan və sevilən sənətkardır. Demək, elə Azərbaycan nə qədər Şəhriyardır, bir o qədər də Səhənddir.

Təəssüf ki, Şəhriyarın da dil uğrunda öz sənəti ilə mübarizəsi, Pişəvərinin də siyasi savaş yolu bu gün gücsüz görünür. Özünü dindar adlandıranların allahsız hökmləri bu gün çox təəssüf doğurur. Nə qədər acınacaqlı olsa da, bu, həqiqətdir və "Qurdağzı" duası" poemasında da açıq-aşkar bu məsələlər qabardılır, insanların diqqətinə çatdırılır:

Allahsızlar allahlığı mənsəb bilsə göy sökülər,
Yer üzünə zülmət çökər, günəş sönər, ay çəkilər;
Aydınlığı «ah» yandırar, insanlığa vay çəkilər;
Daş yağarsa göy üzündən baş yarılar, göz tökülər,
Harayına aman olmaz ağıllının, axmağın da.

Edamlara fitva verən haqq üzünü fəhm eləmir,
Meydan-meydan qan gölündən bir çəkinmir, vəhm eləmir;
Quduz dişlər qan görüncə hərisliyi kəm eləmir.
Yüz illərdir bu qan yağır, fələk bizə rəhm eləmir,
Qan göyərmir, bitmir axı... qısır göylər yağmağında.

Vüsal eşqi arzusunda dad gözlədik, Söhrab Tahir,
Yolumuza işıq salan yad gözlədik, Söhrab Tahir;
Səndən imdad, haray uman, dad gözlədik, Söhrab Tahir.
Neçə kərəm tonqal qurub, od gözlədik - Söhrab Tahir,
Bir qor atsın... Tanrının da qovu yoxdur çaxmağında!

Müəllif birdən-birə ustadının adını xüsusi təkrirmübarizənin yolu heç vaxt tükənmir. Biz "Qurdağzı duası" poemasını oxuduqca təlqin olunan hisslərin, duğuların ovsununda oluruq. Səbəb də odur ki, insan öz insanlığını, haqqının, hüququnun qorunduğu yerdə daha yaxşı görə bilir.

Azərbaycanın tarixi şəhərləri - Təbriz, Ərdəbil, Zəngan, Marağa, Xoy, məşhur Urmiya və digər çoxlu sayda qədim azəri-türk məkanları bizə sanki ittihamnamə oxuyur. Xalqı tarixi köklərinə qayıtmağa çağırır. Artıq bir həqiqət bütün çılpaqlığı ilə məlumdur. Din Cənubi Azərbaycan mənəvi müstəqillik vermək isqtidarında deyil. Mənəvi istinad Təbrizdir, Savalandır, Xudafərindir. Və demək, həm də Söhrab Tahirdir. Zənnimizcə, müəllif də elə bunu demək istəyir:

Misra-misra varlığımdan süzüldükcə söz yaşları,
Ağlar qalan qoca Təbriz, Savalandır... yoz, yaşları;
Oda tutub pörşələyər xainləri köz yaşları;
Söhrab Tahir, o sahildə-bu sahildə göz yaşları -
Suya döndü, selə döndü - Araz olub axmağında.

Danışmayan dili, ağzı nəfəsi var hər kədərin,
Qəmlərinlə savaşına qalib gələr öz təpərin.
Sel də olsa keçməlisən dayaz olsun, ya da dərin;
Alabəzək dirəklərin, tikan dolu məftillərin
Ağlayan var, sızlayan var həm solunda, həm sağında.

Qəzəblərin kükrəməyi bir qəzəbdən alışandı,
Alışdımı bu dünyanın əməlləri qarışanda,
Könüllərin həsrət dolu duyğuları yarışanda;
Təbriz üstü Marağanın gözəlləri pərişandı,
Zülfü gəlməz daramağa bu taleyin darağında.

Məşhur mahnı var; deyəsən, R.Muradova həmin mahnını çox yanıqlı oxuyurdu. "Gəlmişəm otağına Qaragilə, oyadam səni". Yaxud bayatı üstündəyacan gedən yolu misralarla çözələyir və oxucunun gözlərinin önünə gətirir. Sanki biz Orxon-Yeniseydən, Altaydan başlanan yolu - sonuncu dənizəcən gedən yolu gözlərimizin önünə gətiririk. Zənnimcə, xalqa - mənsub olduğun etnik topluma bundan artıq təsir gücündə təlqin etmək mümkün deyil:

Qaraçorlu Bulud gəlsə, «Səhəndiyyə» can qovurar,
Qışımızdan əsən külək sinəmizdən dərd sovurar.
Çiçək burnu arzuları qar aparar, şaxta vurar,
Bu dünyanın gərdişinə göz qoyuram - əmması var,
Söhrab Tahir, günah varmı əmmasında, ancağında?!

Ağ dəvəni düzdə qoyduq, düzdə qalan yandı axı,
Sinəmizdə köz yandırır köşəyinin bozlamağı,
Bu gedişlə harda bitər qara yolun duracağı.
Kəndirini dolaşdıran kimdi axı, nədi axı -
Görən kimin marağı var bu dəvənin xıxmağında?

Tarix ibrət kitabıdır yada salsın uçan taxtı,
Yandırılan kitabların göz yandırır yanan vaxtı.
Nədən, niyə... bizə yazdı qaraçuxa qara baxtı.
Gülüstanda şaqqa vurdu, Türkmənçayda şişə taxdı,
Cəllad əli - təhəri var yandırmağın, yaxmağın da.

Yuxarıda qeyd etdiyimiz kimi müəllif əsərinin məzmununu, mahiyyətini oxucuya daha qabarıq çatdırmaq üçün tarixi adlardan, obrazlardan daha uğurla yararlanır.

Ümumiyyətlə, Ə.R.Xələflinin yaradıcılığında Gülüstan, Türkmənçay faciə obrazları kimi diqqətə çəkilir. Həyat göstərir ki, tarixi həqiqətlər unudulanda xalqlar öz keçmişlərindən ayrılmış olur, öz xalqlıqlarını da itirirlər.

Əsərdə B.Qaraçorlu Səhəndin adı çəkilir, Şəhriyarın məşhur "Səhəndiyyə" poeması xatırlanır. Doğrudur, "Səhəndiyyə"ni bir çoxları ictimai motivli şeir kimi də xarakterizə edirlər. Ancaq burada həcm əsas eyil, burada məzmun, əsərin ehtiva etdiyi güc əsasdər. "Səhəndiyyə" Azərbaycan düşüncəsinin tərənnümünə həsr olunmuş bir poemadır.

Ə.R.Xələfli də "Səhəndiyyə" poemasını da Səhənd obrazını çox uğurla xatırlayır. Onun müasir lərlə xatırlayır. Məhz bu yolla millətin mnəəvi mühitindəki odu, atəşi sönməyə qoymur. Hardakı od öləziyir, sanki kül ocağın üstünü örtür, o zaman odlu misraları ilə həmin ocağı üfürməyə çalışır. Bununla da sözün, sənətin nəyə qadir olduğunu sanki diqqətə çəkir. Silahla, rejimlə öz gücünü göstərmək istəyənlərə diktə edir ki, daha bir silah da var. o, sözdür, sənətdir. Bu silaha topun, tüfəngin... zorun gücü satmaz.

Həyat göstərir ki, azadlığı istəyə bilərik, amma öz mənafeyini güdənlərin heç birisi azadlıq adlı ilahəni qucaqlamaq, özünə çəkmək istəmir. Çünki azadlıq adlanan mahiyyətdə özünü düşünməyə, öz mənafeyini düşünməyə yer qalmır.

Müəllif sanki siyasi hiylələrlə, fırıldaqlıqlarla dolaşmış olan əhyatın mahiyyətinə nüfuz edir. Təəssüf edir ki, doğrunu, düzgünü qəbul üçün kimsə qucaq açmır:

Azadlıqdır diləyimiz, qucaq açıb qucanı yox,
İstəyimiz göylər gəzir, arxasınca uçanı yox;
Bir gəl bəri, deyəni yox, işıq-ümid saçanı yox.
Bir kələfdi çözəni yox, çox dolaşıb, açanı yox,
İpin ucu əldən düşüb... diyirlənən yumağında!

Dünya boyu savaşlarda hərə qismət, pay götürdü,
Ötür-ötür bazarından tarix bizə dərd ötürdü;
Min bir ağı, bayatıya qəm üstündə dil bitirdi.
Niyyətlər də boşa çıxdı, "qulaq falı" bəd gətirdi,
Çərşənbələr sanayırıq... fələk özü saymağında...

Təəssüflər göz qabağındadır. Ayrı-ayrı tarixi fürsətlərdə xalqlar yararlandı, öz müqəddərratlarını həll etdilər. Tale yollarını düzgün seçdilər. AMma İran rejimi altındakı otuz milyonluq (bu gün artıq qırx milyon iddiası var) bir xalq nəinki müstəqillik, heç dil müstəqilliyi də ala bilmədi. Siyasi muxtariyyətin, dil azadlığının olmadığı mühitdə xalqın taleyi sual altında qalır.

Müəllif gözə görünməyən göz yaşlarını misralara çevirir. Mislara isə sanki Təbrizin, Savalanın taleyindən keçir. S.Tahirin ömrünü həsr etdiyi idealın özündən keçir. Bu da bizim üçün bir həqiqəti təlqin edir. Yəni haqqın, hüququn uğrunda "Təbriz üstuü marağa, Zülfün gəlməz darağa" misralarını indi tamam fərqli, çılpaq, ağrılı-acılı mahiyyəti var. Müəllif, şübhəsiz, həmin obrazları əslinə qalsa, xalqın yolunu xatırladan əsas vasitə kimi yaddaşa gətirir. Düşünürəm ki, həyat həqiqətləri tarixləşir, amma unudulmur, yaddaşa keçir, zamanı, vaxtı gələndə xatırlanır, diqqətə gətirilir. Bununla da varislik təmin olunur; tarixiliklə dövrümüz, zamanımız arasındakı varislik...

Sözün, sənətin dəyəri də elə bu varisliyi təmin etməkdən asılıdır. Müəllif yeri gələndə maraqlı söz oyunundan istifadə edir. O, Azər-Baycan obrazına müraciəti də xüsusi mənada təqdmi edir. Düşünürəm ki, bu barədə mahiyyəti müəllifin öz dilindən oxumaq, dinləmək daha yaxşıdır:

Hardan gəlsə ağrı-acı ayrı deyil, bir canadır,
Bir ürəyə gələn göynəm, Azərdir, Baycanadır,
Dil ağrısı bir yanadır, Vətən dərdi bir yanadır;
O tay-bu tay - fərqi yoxdur, odlar yurdu bir anadır,
Ocaq üstə qovrulmada - tavasında, tabağında.

Sırsıralar buz bağlayıb sinəmizin dağ üzündə,
Kədər, qəm bar gətirib Şəhriyarın bağ üzündə.
Gözlərimiz şahid oldu, nələr gördük çağ üzündə;
Qanqırmızı arxlar çəkib, şırım açıb ağ üzündə,
Lalələrdir qövsi-qüzeh, anaların cırmağında.

Zənnimcə, bu iki bənddəki yanğını bütöv Arazın suyunu döndərəsən, yenə söndürə bilməz. Müəllif doğru olaraq Vətən mülkünü ocaq üstündə qovrulmada olan tavaya, tabağa bənzədir. Yanğının mahiyyətini bundan artıq daha hansı obrazda vermək olar?.. Müəllif yanğıdan sanki məntiqi əlaqəni qırmadan buz, sırsıra təsirinə keçir. Sinəmizin dağ üstündəki yaraların necə sırsıra bağlamağını yada salır. Donuşluq vaxtı qırovlar ayrı-ayrı budaqların üstündə sanki yara-yara görünür. Müəllif də bu görüntüdən öz müşahidəsi ilə sırsıra obrazının dərd dağının üzərinə gətirilməsini təmin edir.

Beləliklə biz, odun-atəşin içinhdə yanan Vətəni görürük.

*(Davamı var)*